**Respublika.** - 2024.- 23 avqust. - № 180. - S. 9.

# Təbiətin yaşıl harmoniyası pozulmamalıdır

**Əlisəfa Həsənov**

***"COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Dünya üzrə hər il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) keçirilir. Ölkəmiz Tərəflər Konfransının bu ilin noyabr ayında Bakıda keçiriləcək 29-cu sessiyasına (COP29) sədrlik edəcəkdir. Azərbaycanın növbəti mötəbər beynəlxalq tədbirə ev sahibliyi etməsi ölkəmizə göstərilən yüksək etimad və inamın parlaq nümunəsidir.

Müsahibimiz təqaüddə olan ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi, Qarabağ müharibəsi veteranı Böyükağa Panəliyevin COP29-la bağlı fikirləri maraqlıdır:

- 2015-ci ilin dekabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında Paris Razılaşması qəbul olunub. Sənədi 171 ölkənin dövlət və hökumət rəhbərləri, xarici işlər, ətraf mühit nazirləri imzalayıb. Azərbaycan da Paris Sazişinə fəal şəkildə qoşulan ölkələrdən biridir. COP-un məqsədi, əsas tələbi dünyada karbon qazının miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaqdan ibarətdir.

Dövlətimizin enerji siyasətində bərpaolunan enerji istehsalını artırmaq prioritet istiqamətlərdən biridir. Azərbaycan "yaşıl enerji"yə keçidlə bağlı təşəbbüsləri dəstəkləyir və bu sahədə dünyanın qabaqcıl ölkələri sırasına yüksəlmək əzmindədir. Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan "yaşıl enerji" zonası elan edilib.

2050-ci ilə qədər ölkəmizdə istixana qazı emissiyalarını 40 faiz azaltmaq nəzərdə tutulub. 2030-cu ilə qədər bərpaolunan enerji istehsalını çoxaltmaqla elektrik enerjisində bərpaolunan enerji payını 30 faizə çatdırmaq, "yaşıl enerji" sahəsində liderliyə nail olmaq üçün mövcud enerji sistemi şaxələndirilir.

Məlumdur ki, ekoloji cəhətdən təmiz mühit, əlverişli iqlim şəraiti, o cümlədən yaşıl sərvətimiz olan meşələr insanın həyatında mühüm rol oynayır. Təbiətin bir parçası kimi insanın yaşayışını təbii mühitdən, yaşıl dünyamızdan kənarda təsəvvür etmək mümkün deyildir. Bütün zamanlarda olduğu kimi, insan özünün mövcudluğu üçün saf mühitə, təmiz havaya, təbiətin ağciyəri sayılan yaşıl meşələrə borcludur.

Statistikaya görə, planetimizdə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Son iki əsrdə dünya üzrə meşə ərazilərinin sahəsi iki dəfədən çox azalıb. Ölkəmizin ərazisinin 11,8 faizini meşələr təşkil edir. Meşə fondunun 49 faizi Böyük Qafqaz, 34 faizi Kiçik Qafqaz, 15 faizi cənub və 2 faizi Aran zonasının (Naxçıvan Muxtar Respublikası ilə birlikdə) payına düşür.

Azərbaycanda adambaşına düşən meşə sahəsi 0,12 hektardır. Qarabağda və Şərqi Zəngəzurda 261 min hektar meşə fondu 30 ilə yaxın Ermənistan silahlı birləşmələrinin işğalı altında qaldığından vəhşicəsinə istismar edilib. Göründüyü kimi, ölkəmizin yaşıl örtüyünün mühafizəsinə və qorunub artırılmasına zəruri ehtiyac vardır.

Müdrik dövlət xadimi, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin hakimiyyətdə olduğu 1969-1982-ci illərdə ölkəmizin ayrı-ayrı bölgələrinin mavi yanacaqla təmin edilməsi, yeni su elektrik stansiyalarının tikilib istifadəyə verilməsi meşələrin qorunmasında və inkişafında mühüm rol oynamışdır. Təbii ehtiyatlardan səmərəli istifadə, meşə-bərpa işləri, salınan min hektarlarla meşə massivləri, milli parklar, qoruqlar və təbiət yasaqlıqları meşəçiliyin inkişafına mühüm töhfələr vermişdir.

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev özünün məşhur "Həyəcan təbili" kitabında yazırdı: "Həyatda dərsə gecikmək olar, bazara da... Amma təbiətin fəryadına gecikmək olmaz. Çünki təbiətin fəryadına gecikmək böyük faciələr yaradar". Təbiət vurğunu olan akademik bu fikirləri önə çəkəndə hələ informasiya-kommunikasiya texnologiyaları bu qədər inkişaf etməmişdi, texnogen proseslər indiki qədər qlobal xarakter almamışdı, meşələr bu qədər azalmamışdı, təpələr, dağlar bu qədər çılpaqlaşmamışdı.

Bu gün bizi dərindən düşündürən, narahat edən bir sıra problemlərin arxasında ekoloji vəziyyətin ağırlaşması, təbiətin yaşıl harmoniyasının pozulması durur. Kütləvi qırıntılar nəticəsində meşələrimiz

seyrəlib, bir çox bitkilərin kökü kəsilib, nadir ağaclar sayca azalıb. Erməni işğalı nəticəsində min hektarlarla meşələrimiz uzun illər ekoloji genosidə məruz qalıb. Həmin meşələrin bərpasına 10 illərlə vaxt lazımdır.

Təbiətdə baş verən dəyişiklər göz qabağındadır. Ekoloji hadisələr nəticəsində təbii şərait sürətlə dəyişir, ilin fəsilləri arasında fərqlər aradan qalxır, çayların, mavi Xəzərin suyu azalır, müxtəlif amillərin təsirindən hava çirklənir. Küləkli günlər artır, yerin münbit üst qatının erroziyası sürətlənir, çılpaq təpələrin torpaq qatı yuyulur. Bunlar indi böyük narahatlıq yaratmasa da, faciəvi hadisələrin başlanğıcı olmaq ehtimalını artırır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin ətraf mühitin, ekoloji tarazlığın qorunması, təbii sərvətlərin artırılaraq zənginləşdirilməsi, meşələrin mühafizəsi sahəsində apardığı islahatlar, həyata keçirdiyi vacib, səmərəli tədbirlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla, yüksək işgüzarlıqla davam etdirilir. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə ətraf mühitin mühafizəsi, yeni yaşıl zonaların yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Hər il ölkəmizdə milyonlarla ağac və kollar əkilir, meşələr bərpa edilir, yeni parklar, yaşıllıqlar salınır.

Azərbaycanın təbiəti olduqca zəngin və rəngarəngdir. Ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsinin təmin edilməsi təkcə bu sahədə çalışanların işi deyil, hamının müqəddəs borcu olmalıdır. Sərvətlərini səxavətlə bəxş edən ana təbiətə laqeyd münasibət bəsləməyə haqqımız yoxdur. Hirkan bəbiri, hirkan şümşadı, talış qırqovulu, dəmirağac və nəsli kəsilmək üzrə olan flora və fauna növlərinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması vacib, mühüm əhəmiyyətli vəzifədir. Meşələrimizin daha da zənginləşməsinə, ətraf mühitin mühafizəsinə hər birimiz öz töhfəmizi verməliyik.

Ekoloji layihələr hər rayonu, hər kəndi və yaşayış məntəqəsini əhatə etməlidir. Hər ağaca, hər kola, hər pöhrəyə sevgi ilə yanaşmalı, bir budağın belə qırılmasına imkan verməməliyik. Hər birimiz bunu doğma işimiz kimi həyata keçirməliyik. Ölkə rəhbərliyinin təşəbbüsü ilə reallaşan ağacəkmə aksiyalarında, yeni yaşıllıqların salınmasında yerli əhali fəal iştirak edir.

Prokurorluq orqanlarında işlədiyim 30 ildən artıq müddətdə qanunsuz ağackəsmə ilə əlaqədar onlarla cinayət işi üzrə istintaq aparmış, məhkəmələrdə dövlət ittihamının müdafiəsini həyata keçirmişəm. Bu illər ərzində gəldiyim qənaət belə olub: qanunsuz ağackəsmə işləri üzrə dəymiş ziyanın təqsirləndirilən, yaxud digər vəzifəli şəxslər tərəfindən ödənilməsi bir yaşıl ağacı bərpa etmir, ekoloji mühitə vurulan ziyanı əvəz edə bilmir.

Bu gün odun tədarükündə mühərrikli mişarlar geniş tətbiq olunur. Vətəndaş azad şəkildə pulunu ödəyib mühərrikli mişar əldə edə bilir. Diqqətimi belə bir fakt cəlb edir ki, qanunsuz ağackəsmə ilə bağlı bütün cinayətlər mühərrikli mişarlar vasitəsilə törədilir.

İlk baxışda bu adi insan hüququ kimi qiymətləndirilə bilər. Ancaq bu hüquq, sözün həqiqi mənasında, insanın özünün "oturduğu budağı" kəsməsinə şərait yaradırsa, bunun məhdudlaşdırılmasına, mühərrikli mişarların dövriyyəsinin azaldılmasına ehtiyac vardır. Mənim fikrimcə, odlu silahların, o cümlədən soyuq silahların, müəyyən zəhərli, narkotik vasitə və psixotrop maddələrin əldə edilməsinə tətbiq olunan məhdudiyyətlər mühərrikli mişarlara da tətbiq olunmalıdır.

Əlbəttə, mən hər hansı mişarın azad satılmasının əleyhinə deyiləm, yalnız mühərrikli mişarların satışına məhdudiyyət qoyulmasını təklif edirəm. Bunun əvəzsiz yaşıl sərvətimizin qorunmasına böyük faydası olacaqdır.

Ölkəmizdə mühərrikli mişarlar istehsal olunmur. Bu alət xaricdən idxal olunur. Fikrimcə, dövriyyəsinə məhdudiyyətlər tətbiq edilmiş, yaxud azad dövriyyəsi qadağan olunmuş bir çox predmet, maddə, vasitələr kimi mühərrikli mişarların da ölkə ərazisinə idxalı, topdan və pərakəndə satışına məhdudiyyət qoyan qanun layihəsi işlənib hazırlanmalıdır. Mühərrikli mişarların ölkəyə idxalına yüksək gömrük rüsumu tətbiq etmək olar.

Ölkəmizdə meşə sahələri o qədər geniş deyil, bolsulu çaylarımız da azdır. Yay aylarında müxtəlif səbəblərdən meşə yanğınları baş verir, çayların suyu azalır. Əminəm ki, COP29 beynəlxalq konfransında qəbul edilən qərarlar ölkəmizdə meşə örtüyünün qorunmasına, yeni yaşıllıqların salınmasına, "yaşıl enerji" istehsalının artırılmasına yeni imkanlar yaradacaqdır.